**UOT 94(479.24)**
**https://doi.org/10.59849/2218-4783.2024.2.21**

**HACIFƏXRƏDDİN SƏFƏRLİ, FƏXRƏDDİN EYLAZOV**

# XOK KƏNDİ: TARİXİ, ABİDƏLƏRİ

*Məqalədə Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonuna daxil olan Xok kəndinin tarixindən və abidələrindən bəhs olunur. Qeyd edilir ki, kəndin ərazisində indiyədək qalan Haleylim, Cinli dərə və digər arxeoloji abidələrin, karvansara qalıqlarının, məscidlərin və bir kəhrizin tədqiqi göstərir ki, mühüm ticarət yollarının kənarında yerləşən Xok kəndi Orta əsrlər zamanı bölgənin inkişaf etmiş yaşayış məskənlərindən biri olmuşdur. Kənddə indiyədək qalan məscidlərin üzərində olan kitabələrin təqdim etdiyi məlumatlardan aydın olur ki, hər iki məscid hicri-qəməri təqvimi ilə 1328-ci ildə (miladi təqvimi ilə 1910-cu ildə) təmir olunmuşdur.*

**Açar sözlər:** *Naxçıvan, Xok kəndi, arxeoloji abidə, yaşayış yeri, karvansara, məscid, kəhriz.*

Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonunda iri yaşayış məskənlərindən biri də Xok kəndidir. Naxçıvan-Şərur avtomobil yolunun sağ tərəfində, rayonun mərkəzi Qıvraq qəsəbəsindən 6 kilometr şimal-şərqdə yerləşən kəndin 6 min nəfərə yaxın əhalisi vardır. Kənd Kəngərli rayonunun inkişaf etmiş yaşayış məskənlərindən biridir. Ərazisində sistemli arxeoloji tədqiqatlar aparılmadığı üçün bu yaşayış məskəninin əsasının nə vaxt qoyulması dəqiq məlum deyildir. Ancaq ərazisində və ətrafında mövcud olan arxeoloji abidələrdə aparılan kəşfiyyat xarakterli tədqiqatlar zamanı əldə olunan maddi mədəniyyət nümunələri əsasında onun yaranma tarixi haqqında müəyyən fikirlər söyləmək mümkündür.

Xok kəndi ərazisində mövcud olan arxeoloji abidələrdən biri Haleylim yaşayış yeridir. Bu abidə Xok kəndinin cənub tərəfində yerləşir. Haleylim yaşayış yeri hündür təpəni və onun ətrafındakı düzənlik sahəni əhatə edir. Tədqiqatçıların fikrincə, abidənin ərazisindən Orta əsrlər zamanı müvəqqəti yaşayış məskəni kimi istifadə edilmişdir. Kəşfiyyat xarakterli tədqiqatlar zamanı yaşayış yerinin ərazisində Son Orta əsrlərə aid qırmızı rəngli keramika parçalarına rast gəlinmiş və toplanmışdır.

Yaşayış yerinin yerləşdiyi Haleylim dağı ilə bağlı xalq arasında əfsanə və rəvayətlər də vardır. Xalq arasında yayılan əfsanələrə, rəvayətlərə və abidənin ərazisindən əldə olunan yerüstü arxeoloji maddi-mədəniyyət nümunələrinin təhlilinə əsasən, yaşayış yeri XII-XVIII əsrlərə aid edilmişdir [2, s. 234].

Xok kəndinin cənub-şərq tərəfində yerləşən Şah bağından xeyli aralıda əhali tərəfindən Cinli dərə adlandırılan başqa bir yaşayış yeri də vardır. Yaşayış yerinin sahəsi təxminən 2500 kvadratmetrdir. Abidənin ərazisində bir neçə təbii bulaq və onların qarşısında düzəldilmiş kiçik göllər vardır. Təəssüf ki, yaşayış yerində mədəni təbəqə saxlanmamışdır. Yerüstü materiallar azdır. Abidədə kəşfiyyat xarakterli axtarışlar zamanı çəhrayı və sarı rəngli gil qab sınıqları, şirli saxsı məmulatı, gil məmulatı və s. maddi mədəniyyət nümunələri aşkar olunmuşdur. Abidədən əldə olunmuş gil məmulatları Naxçıvan bölgəsinin Son Orta əsrlər dövrü keramikası üçün xarakterik olub XVI-XVIII əsrlərə aiddir [2, s. 232].

Xok kəndindən cənub-qərbdə hündür təpənin üzərində qala tipli II Cin dərəsi adlı yaşayış yerinin qalıqları qalmaqdadır. Ətraf yerlərə nisbətən hündürdə yerləşən qala müdafiə üçün əlverişli mövqedə salınmışdır. Şimal tərəfdən təbii qayalıqla əhatə olunmuş yaşayış yerində daş tikintilərin və qəbirlərin qalıqları qalmışdır. Şübhəsiz ki, bu qəbirlərdə qalanın müdafiəsi zamanı həlak olan insanlar dəfn olunmuşdur.

Yaşayış yerinin mədəni təbəqəsi 1-1,5 metr qalınlığında saxlanmışdır. Əldə olunan arxeoloji materiallar başlıca olaraq çəhrayı rəngli keramika parçalarından ibarətdir. Onlar arasında Son Antik və Orta əsrlər dövrünə aid saxsı parçalarına rast gəlinir. Qala uzun müddət müdafiə məqsədi ilə istifadə olunmuşdur. Qalanın ətrafındakı ərazi indi də yaşayış yeri və əkin sahəsi kimi istifadə olunur.

Arxeoloq alimlər kəşfiyyat xarakterli tədqiqatlar zamanı əldə olunmuş arxeoloji materiallara əsasən abidəni I-XVII əsrlərə aid edirlər [2, s. 229-230].

Qeyd etmək lazımdır ki, Xok kəndi mühüm ticarət yollarının keçdiyi bir ərazidə yerləşir. Ona görə də, Xok kəndində yaşayış məskəninin yanından keçən ticarət karvanlarına xidmət etmək üçün bir sıra abidələr, o cümlədən karvan əhlinin ibadət etməsi üçün məscidlər, istirahətləri və alver etmələri üçün  karvansaralar inşa olunmuş, su təminatları üçün kəhrizlər qazdırılmışdır.

Belə abidələrdən biri hazırda kəndin yaxınlığında yerləşən və əhali tərəfindən Xaraba karvansara adlandırılan karvansaradır. Karvansaranın sahəsi 2 hektara yaxındır. Onun ərazisində xeyli bişmiş kərpic qalıqlarına rast gəlinir. Bu isə burada tikililərin inşasında bişmiş kərpicdən geniş istifadə olunduğunu göstərir. Hazırda tikililərin yerində dördkünc formalı çalalar və kərpic təpəcikləri qalmışdır. Tikinti qalıqlarına əsasən karvansara kompleksinə daxil olan binaların bir-birinə bitişik yerləşdirilmiş, dördkünc formalı tikililərdən ibarət olduğunu söyləmək olar.

Karvansara ərazisindən əldə olunmuş yerüstü arxeoloji materiallar başlıca olaraq çəhrayı rəngli şirsiz və şirli keramika parçalarından ibarətdir. Aşkar olunan keramika məmulatı başlıca olaraq Son Orta əsrlər dövrü üçün xarakterikdir. Arxeoloji materialların təhlilinə əsasən karvansaranın tarixini  təxminən XIV- XVIII əsrlərə aid etmək olar [2, s. 232].

Xok kəndinin mərkəzində 3 memarlıq abidəsi qalmışdır.  Bunlardan biri kənd əhalisinin yuyunması üçün inşa olunmuş hamamdır. Hamamın binası yerli daşdan dördkünc formada inşa olunmuşdur. Abidənin üstü tağbəndlərlə saxlanan iki günbəzlə örtülmüşdür. Onun daxilində ümumi çarhovuz və yuyunmaq üçün xüsusi yerlər düzəldilmişdir. Tikinti üslubu qonşuluqdakı Şahtaxtı hamamı ilə eyni olan hamamın inşa tarixini 19 əsrə aid etmək olar.

Xok kəndinin mərkəzində, bir-birindən çox da aralı olmayan 2 məscid də vardır. Son Orta əsrlər zamanı Naxçıvan ərazisində özünəməxsus yeri olan ibadət yerlərindən biri də Xok kəndinin mərkəzində yerləşən və hazırda da istifadə olunan Came məscididir. Daşdan və bişmiş kərpicdən inşa edilən məscidin binası yarandığı vaxtdan indiyədək keçən müddətdə müəyyən kiçik dağıntı və aşınmalara uğrasa da, bu günədək əsasən salamat vəziyyətdə gəlib çatmışdır. Məscidin həcmi, möhtəşəmliyi, divarlarının qalınlığı və s. əlamətləri təsdiq edir ki, bu məscid inşa edildiyi zamandan ticarət-karvan yollarının üstündə yerləşən Xok kəndinin sosial-siyasi və ideoloji həyatında mühüm yer tutmuş, cəmiyyətin həyatında fəal rol oynamışdır.

Bir sıra memarlıq abidələrində olduğu kimi bu məscidin də üzərində abidə haqqında müəyyən məlumatları özündə əks etdirən bir neçə kitabə vardır. Bu kitabələrdən biri məscidin şərqdən giriş qapısının sol yanında qoyulmuşdur (şəkil 1). Dörd sətirdə, fars dilində boz daşa həkk edilmiş kitabənin mətni belədir:

تاریخ بنا و تعمیر کردن مسجد درچله بزرگ و تمام شد در آخر چله کوچک در ایام  زمستان  ۱۷ محرم الحرام ۱۳۲۸

"Məscid binasının təmiri qış dövründə, böyük çillədə başlamış və kiçik çillənin axırında tamamlanmışdır. Tarix, 17 məhərrəm 1328-ci il ".

17 məhərrəm 1328 h.i. = 29 yanvar 1910-cu il.

Göründüyü kimi, Qurani-Kərimin “Allahın məscidlərini yalnız Allaha və axirət (qiyamət) gününə iman gətirənlər təmir edərlər” ayəsinə (IX surə, 18-ci ayə) uyğun olaraq Xok kənd məscidi 1910-cu ildə təmir etdirilmişdir. Təmir zamanı giriş qapısının baş tərəfində əlavə iki ədəd kitabə qoyulmuşdur. Kitabələrdən biri ancaq tarixdən ibarətdir:

“١٣٢٨” / 1328.

1328 h.i. = 1910-cu il.

Üç sətirdə həkk edilmiş ikinci kitabədə isə Allahın, şiə aləmində “Pənc əl-əba” adı ilə tanınan müqəddəslərin adı və tarix qeyd edilmişdir:

الله محمد علی فاطمه حسن حسین ١٣٢٨

“Allah, Məhəmməd, Əli, Fatimə, Həsən, Hüseyn. 1328”.

Göründüyü kimi, kitabələrdə məscidin inşa tarixi haqqında heç bir məlumat yoxdur.

Məscidin giriş qapısının sağ tərəfində olan pəncərənin yan tərəfində boz daş üzərində kobud xətlə, cızma üsulu ilə ملا عبّاس - “Molla Abbas” şəxs adı, o biri yanında isə tarix həkk edilmişdir:

١٢٨٠ / 1280

Hicri-qəməri təqvimilə verilən bu tarix miladi ilə 1863-1864-cü illərə müvafiqdir. Bu tarixi məscidin inşa ilinə aid etmək olmaz. Çünki məscidlər inşa edilərkən onlara aid kitabələr adətən giriş qapısının baş tərəfində qoyulurdu. Həmçinin, məscidin binasının memarlıq xüsusiyyətləri də onun XIX əsrin ortalarına aid edilməsi üçün əsas vermir. Fikrimizcə, daş üzərində çox naşı şəkildə qazılmış 1280-ci il tarixi daşa sonralar, ehtimal ki, adı digər daşda qeyd edilən Molla Abbas tərəfindən həmin ildə yazılmışdır.

Məscidin binası müstəqillik illərində camaatın vəsaiti və köməyi ilə yenidən təmir edilərək əhalinin istifadəsinə verilmiş, dindarların yığıncaq yerinə çevrilmişdir. Bununla da, məscidin əvvəllər daşıdığı funksiya bərpa olunmuşdur. Təmir zamanı məscidin qarşısında, şərqdən girişinin önündə bişmiş kərpiclə artırma inşa olunmuşdur. Həmçinin həmin vaxt məscidin şimal və cənub tərəfində olmaqla dəmir borudan iki ədəd minarə düzəldilmişdir.

Məscidin kitabələrində tikilmə tarixi haqqında bəhs edilmədiyindən onun inşa ilini dəqiq söyləmək mümkün deyildir. Ancaq memarlıq-konstruktiv xüsusiyyətlərinə və Azərbaycanın, o cümlədən Naxçıvanın digər bölgələrindəki oxşar abidələrlə müqayisəsinə əsasən onu XVII-XVIII əsrlərə aid etmək olar [5, s. 302-304; 6, s. 78-80].

Kəndin şimal hissəsində, haqqında bəhs olunan məsciddən təxminən 400 metr yuxarıda kənd əhalisi arasında “Köhnə məscid” kimi tanınan başqa bir məscid də vardır. Məscid yerli daşdan inşa olunmuşdur. Bir mərtəbəlidir. Ancaq Sovet hakimiyyəti illərində məscid kimi istifadə olunmadığından və baxımsız qaldığından zaman keçdikcə güclü aşınmaya məruz qalmışdır. Nəticədə məscidin dam örtüyü, qapı və pəncərələri tamamilə dağılmış, məhv olmuşdur. Hazırda məscidin xarabalıqları qalmaqdadır.

Məscidin girişi şərq tərəfdəndir. Giriş qapısının baş tərəfində bir-birinin üstündə qoyulmaqla 2 kitabə vardır. Birinci kitabə yaşılımtıl rəngli kiçik daş lövhə üzərində 3 sətirdə ərəb dilində oyma üsulu ilə həkk edilmişdir (şəkil 2). Mətni belədir:

مسجد جامع لا اله الا الله محمد رسول الله علی ولی الله محرم ١٣٢٨

“Came məscidi. Allahdan başqa Allah yoxdur. Məhəmməd Allahın elçisidir. Əli Allahın dostudur. 1328”.

1328 h.i. = 1910-cu il.

Kitabənin mətni islam dininin doktrinasından ibarətdir. Kəndin əhalisi şiə olduğu üçün burada "Əliyyən vəliyullah (Əli Allahın dostudur!)" ifadəsi də qeyd olunmuşdur. Kitabə 4 sətirdə ərəb dilində boz-qırmızımtıl rəngli daş üzərində oyma üsulu ilə həkk edilmişdir (şəkil 3). Tamamilə salamat vəziyyətdə gəlib çatan kitabənin mətni belədir:

فَاخْلَعْ نَعْلَيْكَ إِنَّكَ بِالْوَادِ الْمُقَدَّسِ طُوًى* أَلَا إِلَى اللَّهِ تَصِيرُ الْأُمُورُ * وَأُفَوِّضُ أَمرِيَ إِلَى ٱللَّهِ إِنَّ ٱللَّهَ بَصِيرٌ بِٱلْعِبَادِ الله محمد على
فاطمه حسن حسين مسجد جامع شريف تاريخ تعمير مسجد در ٢٢ ماه محرم ١٣٢٨ وقت زمستان چله بزرگ تمام گرديد در
اول ماه ربيع الثانى يا مقلب القلوب و الابصار

"Nəleynini çıxart, çünki sən müqəddəs vadidə – Tuvadasan! [Qurani-Kərim, XX-12; 1, s. 311]. Bil ki, bütün işlər axırda Allaha qayıdacaqdır [Qurani-Kərim, XLII-53; 1, s. 488]. Mən öz işimi Allaha həvalə edirəm. Həqiqətən, Allah bəndələrini görəndir [XL-44; 1, s. 471]. Allah, Məhəmməd, Əli, Fatimə, Həsən və Hüseyn. Şərəfli came məscidi. Məscidin təmiri 22 məhərrəm 1328-ci ildə (3 fevral 1910-cu il), qış vaxtı böyük çillədə (başlandı), rəbiə-əssani ayının əvvəlində (12 aprel 1910-cu ildə) tamamlandı. Ey qəlbləri çevirən və görən".

Göründüyü kimi, kitabənin mətni əsasən müqəddəs kitab Qurani-Kərimin "Taha", "əş-Şura" və "əl-Mumin" surələrindən götürülmüş ayələrdən, Allahın və şiə aləmində "Pənc əl-əba" kimi tanınan müqəddəslərin adlarından ibarətdir. Ayələrdən və bu adlardan sonra verilmiş mətndən isə aydın olur ki, miladi təqvimi ilə 3 fevral 1910-cu ildə məsciddə təmir işlərinə başlanmışdır. Təmir işləri həmin ilin aprel ayında başa çatdırılmışdır.

Ancaq kitabələrin heç birində məscidin inşa tarixi haqqında məlumat verilməmişdir. Fikrimizcə, XX yüzilliyin əvvəllərində təmir olunan məscidin əsası daha əvvəllər, təxminən XVIII əsrin sonları-XIX əsrin əvvəllərində qoyulmuşdur.

Kənddə fəaliyyət göstərən bu məscidlərin memarlıq üslublarını və kənd əhalisi arasında mövcud olan fikirləri əsas götürərək demək olar ki, hazırda əhali tərəfindən istifadə olunan məscid daha əvvəl, XVII əsrin sonu-XVIII əsrin əvvəllərində, ikinci məscid isə yaranan tələbatla əlaqədar olaraq ondan təxminən bir əsr sonra inşa olunmuşdur.

Xok kəndində ilk növbədə əhaliyə, həmçinin ərazidən keçən ticarət karvanlarına, ümumiyyətlə yolçulara xidmət göstərmək məqsədi ilə ən etibarlı su mənbələrindən olan kəhrizlər də qazdırılmışdır. Belə kəhrizlərdən biri Çay kəhrizidir. Bu kəhriz Naxçıvan Muxtar Respublikasında ən sulu kəhrizlərdən biridir. Kəhriz yaradıldığı zamandan etibarən kənd əhalisini içməli və təsərrüfat suyu ilə təmin etmiş, ərazidən keçən karvan əhlinin və yolçuların su ilə təminatında mühüm rol oynamışdır. Ümumiyyətlə, saniyədə 150 litr su sərfinə malik olan uzun illər Xok kəndi ilə yanaşı qonşuluqdakı Böyükdüz kəndinin də yeganə içməli su mənbəyi olmuşdur [4 s. 118]. Çay kəhrizi Ancaq zaman keçdikcə kəhrizin suyu nisbətən azalmış, təmir işlərinə ehtiyac yaranmışdır. Ona görə də, 2010-2011-ci illərdə kəhrizdə təmir-bərpa işləri aparılmışdır. Nəticədə kəhrizin su sərfi saniyədə 140 litrdən 180 litrə çatdırılmışdır. Hazırda bu kəhrizin suyu ilə 70 hektar əkin sahəsi suvarılır. Həmçinin 300 ailə və 2 fermer təsərrüfatı kəhrizin suyundan istifadə edir [8].

Ərazisindəki tarix və mədəniyyət abidələri haqqında verilən bu qısa məlumatlar təsdiq edir ki, inzibati cəhətdən hazırda Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonuna daxil olan Xok kəndi bölgənin inkişaf etmiş yaşayış məskənlərindən biri olmuşdur. Məhz bu inkişafın nəticəsi olaraq Xok kəndi xanlıqlar dövründə Naxçıvan xanlığına daxil olan mahallardan birinin mərkəzi olmuşdur [3, s. 23]. Bu bölgü Naxçıvan xanlığının 1828-ci ildə Rusiya imperiyasının işğalından sonra da saxlanmışdı: kənd 9 kənddən (Qarabağlar, Xok, Şahtaxtı, Qıvrax,

Yurdçu, Tənənəm, Əznəbürd (Çalxanqala), Xıncov, Sust) ibarət mahalın mərkəzinə çevrilmişdi. Həmin vaxt kənddə 46 ailədə birləşən 148-i kişi, 130-u qadın olmaqla cəmi 278 nəfərmüsəlman-türk yaşamışdır [7, s. 611-614].



**Şəkil 1.**



**Şəkil 2.**



**Şəkil 3.**

## ƏDƏBİYYAT


1. Qurani-Kərimin Azərbaycan dilinə tərcüməsi / Ərəb dilindən tərcümə edənlər: Z.M.Bünyadov, V.M.Məmmədəliyev. Yenidən işlənmiş XVII nəşr, Bakı: Nurlar, 2015, 632 s.
2. Baxşəliyev V. Naxçıvanın arxeoloji abidələri. Bakı: Elm, 2008, 304 s.
3. Əliyev F., Əliyev M. Naxçıvan xanlığı (1747-1828). Bakı: Azərnəşr, 1996, 106 s.
4. Qasımov D. Kəhriz sistemlərinin sosial-iqtisadi səmərəliliyi / Kəhriz sistemləri. Bakı: İndiqo, 2010, 159 s., s. 99-127.
5. Səfərli F., Səfərli F. Naxçıvanda sosial-siyasi və ideoloji mərkəzlər. Bakı: Nurlan, 2003, 392 s.
6. Səfərli H. Naxçıvanın məscid və ziyarətgahları. Naxçıvan: Əcəmi NPB, 2018, 216 s.
7. Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее при соединения к Российской империи. Санкт-Петербург: Типография императорской АН, 1852, с. 482.
8. https://www.anl.az/down/meqale/azerbaycan/2011/mart/163727.htmhttps://www.anl.az/down/meqale/azerbaycan/2011/mart/163727.htm


***Naxçıvan Dövlət Universiteti***
***E-mail: seferli949@mail.ru,***
***AMEA Naxçıvan Bölməsi***
***E-mail: eylazov.f@gmail.com***

**Hajifakhraddin Safarli, Fakhraddin Eylazov**

**KHOK VILLAGE: HISTORY, MONUMENTS**

The history and monuments of the village of Khok, which is part of the Kangarli district of the Nakhchivan Autonomous Republic, are examined in the article. The study of Khaleylim, Jinli Dere and other archeological remains, the remains of a caravanserai, a mosque and one kahriz, which have survived to this day in the village, shows that the village of Khok, situated near important trade routes, was one of the most developed settlements in the region during the Middle Ages. Based on the inscriptions found on the mosques that have remained in the village to this day, it is evident that both mosques underwent repairs in 1328 as per the lunar calendar of the Hijra (and in 1910 as per the Christian calendar).

**Keywords:** *Nakhchivan, Hok village, archaeological monument, settlement, caravanserai, mosque, kahriz.*

**Гаджифахреддин Сафарли, Фахреддин Эйлазов**

**СЕЛО ХОК: ИСТОРИЯ, ПАМЯТНИКИ**

В статье рассмотрены история и памятники села Хок, которое входит в состав Кенгерлинского района Нахчыванской Автономной Республики. Отмечается, что изучение Халейлима, Джинли Дере и других археологических памятников, остатков караван-сарая, мечети и одного кяриза, сохранившихся до сих пор на территории села, показывает, что село Хок, расположенное на окраине важных торговых путей, являлось одним из развитых поселений региона в средние века. Из надписей на мечетях, сохранившихся до сих пор в деревне, становится ясно, что обе мечети были отремонтированы в 1328 году по лунному календарю Хиджры (в 1910 году по христианскому календарю).

**Ключевые слова:** *Нахчыван, село Хок, археологический памятник, поселение, караван-сарай, мечеть, кяриз.*

**Daxilolma tarixi: İlkin variant 13.09.2024**
**Son variant 09.10.2024**